# Azərbaycan və Rusiya şərqşünaslarının elmi əlaqələri genişlənir



2018-ci il noyabr ayının 27-29-u tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində “Rusiya və Şərq. Akademik şərqşünaslığın 200 illiyi” mövzusunda beynəlxalq forum keçirilib. Forum Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunun yaranmasının 200 illiynə həsr olunmuşdu. Forumda Azərbaycanı AMEA prezidenti akademik Akif Əlizadənin başçılıq etdiyi nümayəndə heyəti təmsil edirdi. Nümayəndə heyətinə AMEA Humanitar elmlər bölməsinin akademik katibi, AMEA Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, AMEA İctimai elmlər bölməsinin akademik katibi akademik Nərgiz Axundova, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili akademik Gövhər Baxşəliyeva və digərləri daxil idi.

Forumun işində 20 ölkədən 300-dən çox alim-tədqiqatçı iştirak edirdi. Forumun təntənəli açılış mərasimində akademik Akif Əlizadə geniş nitqlə çıxış edib və Rusiya Elmlər Akademiyası Şərq Əlyazmaları İnstitutunun çoxsaylı kollektivini yubiley münasibətilə təbrik edib, Azərbaycan əlyazmaları haqqında kitabları Şərq Əlyazmaları İnstitutunun direktoru, prof. İ.F.Popovaya təqdim edib.

Forumun ikinci günündə ümumi təbriklər davam edib. Azərbaycan alimləri adından akademik Nərgiz Axundova çıxış edib və REA Şərq Əlyazmaları İnstitutunun kollektivini bu böyük yubiley münasibətilə səmimi qəlbdən təbrik edib.

Daha sonra dəyirmi masalar keçirilib. Azərbaycanlı alimlər əsasən “Avrasiya məkanında akademik şərqşünaslıq: tarix və perspektivlər” mövzusunda dəyirmi masada iştirak ediblər. İlk öncə söz AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyevaya verilib. O, REA Şərq Əlyazmaları İnstitutunun direktorunu və çoxsaylı kollektivini yubiley münasibətilə təbrik edib, xoş arzularını bildirib. G.Baxşəliyeva vaxtilə Rusiya və Azərbaycan şərqşünasları arasında mövcud olmuş sıx əlaqələrdən söhbət açıb və bu gün də həmin əlaqələrin bərpasına böyük ehtiyac olduğunu vurğulayıb.

Sonra tədbirdə AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə REA Şərq Əlyazmaları İnstitutu arasında elmi-təşkilati əməkdaşlıq haqqında protokol imzalanıb. İmzalanan protokol İnstitutların mövcud şöbələrinin birgə layihələr həyata keçirmələrini, tədqiqatlar aparmalarını, elmi işçilər və doktorantlar üçün qarşılıqlı təkmilləşdirmə kurslarının təşkilini, elmi, dövrü ədəbiyyat və kadr mübadiləsini və s.-ni nəzərdə tutur.

Protokolu Azərbaycan tərəfdən AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili akademik G.Baxşəliyeva, Rusiya tərəfdən REA Şərq Əlyazmaları İnstitutunun direktoru, prof. İ.Popova imzalayıblar.

Daha sonra dəyirmi masanın əsas məruzəsi ilə akademik G.Baxşəliyeva çıxış edib. Məruzə postsovet dövründə AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi fəaliyyətinə həsr olunmuşdu.

G.Baxşəliyeva 60 il öncə yaradılmış Şərqşünaslıq İnstitutunun qarşısında duran başlıca vəzifənin Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarının öyrənilməsi olduğunu deyib: “Yüksək ixtisaslı kadrların sayəsində İnstitutda aparılan tədqiqatların mövzu dairəsi də genişləndirilib. Kollektivin əsas fəaliyyəti Şərq xalqlarının tarixinə, iqtisadiyyatına, ictimai-siyasi fikrinə və filologiyasına dair aktual problemlərin kompleks tədqiqinə yönəldi. Bundan əlavə İnstitutda ərəbdilli və farsdilli Azərbaycan alimlərinin və ədiblərinin yaradıcılığına dair tədqiqatlar aparılır.

Keçmiş İttifaqın şərqşünaslıq mərkəzləri ilə sıx əlaqə, elmi təcrübə mübadiləsi, Azərbaycana bu sahənin inkişafında böyük kömək göstərdi.

Respublikamızın müstəqillik qazanması institutun

önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Belə ki, xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi, həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması İnstitutun elmi fəaliyyət dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılması və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarının öyrənilməsi; Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsinin tədqiqi; yazılı abidələrin araşdırılması, tərcüməsi və nəşri; Şərq-Qərb sivilizasiyalararası münasibətlərinin öyrənilməsi; Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrinin tədqiqi; Müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlərin araşdırılması və onlara dair proqnoz və tövsiyələrin işlənib hazırlanması.

Mühüm yenilik Yaxın və Orta Şərq ölkələri ilə bərabər, Mərkəzi Asiya, Uzaq Şərq, Asiya - Sakit Okean regionuna daxil olan ölkələrin tədqiqinə başlanılmasıdır. Şərq-Qərb qarşılıqlı münasibətlər və təsir probleminə də böyük diqqət yetirilir."

G.Baxşəliyeva tədbir iştirakçılarına bu gün Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən şöbələr və hər bir sahədə nəşr olunan fundamental əsərlər barədə ətraflı məlumat verib.

Sonra məruzə ətrafında müzakirələr aparılıb. Tədbir iştirakçıları postsovet məkanında şərqşünaslıq sahəsində aparılan tədqiqatların əlaqələndirilməsi yolları barədə öz fikirlərini bildiriblər.